# *Britaniyalı atlet:*

# "I Avropa Oyunlarında hər şey möhtəşəm təşkil olunmuşdu"



Bakıda keçirilən I Avropa Oyunlarında hər şey möhtəşəm təşkil olunmuşdu, ziyarət etdiyimiz hər yerdən zövq aldıq.

Bu sözləri "Bakı-2015" ilk Avropa Oyunlarında iştirak edən britaniyalı atlet Abbey Vud jurnalistlərə müsahibəsində deyib.

A.Vud I Avropa Oyunlarında yüksək nəticə göstərərək biri qızıl olmaqla dörd medal qazandığını bildirib. İdmançı "Bakı-2015"in onun həyatında xüsusi yerinin olduğunu, özünə inamını daha da artırdığını vurğulayıb.

***Orxan İSMAYILOV,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*London*